ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Kapital Bank

RFO
RESPUBLİKA FƏNN OLİMPİADALARI

# Coğrafiya
# yuxarı yaş qrupu (10-11-ci siniflər)

**Ad**____________________ **Soyad**____________________

*İmtahan müddəti **180** dəqiqədir.
***1-10**-cu suallar **3 bal**, **11-20**-ci suallar **4 bal**, **21-30**-cu suallar **5 bal** ilə qiymətləndirilir.
*Hər səhv cavablandırılmış sual öz dəyərinin ¼-i qədər bal aparır.
*Nəzarətçilərə yalnız cavab kartları təqdim olunur.
*Olimpiadanın nəticələrini **www.olimpiada.edu.az** saytından və ya təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

# UĞURLAR!
**27.02.2022**

**QR kodu oxudaraq nəticənizi əldə edin**

1. Hansı filizlər ferromaqnit *deyil*?

1. Dəmir

2. Gümüş

3. Kobalt

4. Alüminium

5. Nikel

6. Qalay

A) 2, 4, 6 B) 2, 3, 5 C) 3, 4, 6 D) 1, 4, 5 E) 4, 5, 6

2. Hansı ölkənin becərilən torpaq sahələri daha böyükdür?

A) Kanada

B) Çin

C) ABŞ

D) Rusiya

E) Hindistan

3. Cədvələ əsasən düzgün olan bəndi müəyyən edin.

| S/S | Faydalı qazıntının şərti işarəsi | Mənşəyi |
|---|---|---|
| 1 |  | Filiz |
| 2 |  | Qeyri-filiz |
| 3 |  | Filiz |
| 4 |  | Qeyri-filiz |
| 5 |  | Filiz |
| 6 |  | Qeyri-filiz |
| 7 |  | Qeyri-filiz |
| 8 |  | Filiz |
| 9 |  | Filiz |

A) 2, 3, 7, 8, 9 B) 1, 4, 6, 7, 8 C) 3, 4, 6, 8, 9 D) 1, 2, 4, 5, 7 E) 3, 4, 5, 8, 9

4. Nelson çayının eroziya bazisini müəyyən edin.

A) Atabaska gölü B) Hudzon körfəzi C) Müqəddəs Lavrenti körfəzi

D) Böyük Kölə gölü E) Böyük Ayı gölü

5. Okeanda hərəkət edən səth cərəyanları səbəb ola bilər:

I. Çayların mənsəbində estuarinin formalaşmasına

II. Okean səthinin duzluluğunun dəyişməsinə

III. Hərəkət etdiyi okean səthində atmosfer təzyiqinin formalaşmasına

IV. Okeanların səth sularının buxarlanmasının artıb azalmasına

A) Hamısı B) Yalnız I və IV C) Yalnız II D) Yalnız I, II və III E) Yalnız I

6. Hansı şərti işarə ilə göstərilmiş faydalı qazıntıya ölkəmizin  bütün təbii vilayətlərində rast gəlinir?

A) 

B) 

C) 

D) 

E) 

7. Antarktida materikinin sahillərində yerləşən Qərb yarımkürəsinə (I) və Şərq yarımkürəsinə (II) uyğun gələn dənizləri qruplaşdırın.

A) I – Deyvis, Dürvil, Riser-Larsen

II – Ueddell, Amundsen, Ross

B) I – Ross, Bellinshauzen, Dürvil

II – Lazarev, Kosmonavtlar, Birlik

C) I – Ueddell, Lazarev, Amundsen

II – Bellinshauzen, Deyvis, Birlik

D) I – Ueddell, Bellinshauzen, Amundsen

II – Kosmonavtlar, Deyvis, Birlik

E) I – Ross, Bellinshauzen, Riser-Larsen

II – Dürvil, Kosmonavtlar, Lazarev

8. Xəritədə yaşıl rəngin çalarları ən yüksək göstəriciləri ifadə edir. Buna əsasən xəritənin hansı mövzudan bəhs etdiyini müəyyən edin.



A) Ərazinin seysmikliyi
B) Faktiki buxarlanmanın miqdarı
C) Səpələnən radiasiyanın kəmiyyəti
D) Torpaqlarda humusun miqdarı
E) Havanın su buxarı ilə doyma həddi

9. Geotermik pillə A məntəqəsində 16 metr, B məntəqəsində isə 25 metrdir. Bu iki məntəqənin yer səthindən 800 m dərinlikdəki temperatur fərqini müəyyən edin.

A) 32°C B) 50°C C) 9°C D) 82°C E) 18°C

10. Xəritə-sxemə əsasən rəqəmlərlə göstərilən dağ silsilələrindən denudasiyaya daha uzun müddətli məruz qalanlarını müəyyən edin.




A) 1, 2, 4 B) 2, 4, 6 C) 1, 3, 5 D) 2, 5, 6 E) 1, 2, 3

11. Horizontal sxemləri ilə relyef formaları arasında uyğunluğu tapın.




A) a-1, c-4, e-6;

B) b-5, c-1, f-4;

C) c-4, d-3, f-1;

D) a-6, d-5, e-2;

E) b-5, e-6, f-1;

12. Qrafikdə rəqəmlərlə göstərilən məntəqələrdə gecə və gündüzün uzunluqları verilmişdir. Bunu nəzərə alaraq doğru fikirləri müəyyən edin.




1. I Məntəqənin yerləşdiyi coğrafi enlik mülayim işıqlanma qurşağında mövcud ola bilər.

2. II Məntəqənin yerləşdiyi paralel xətti bütün okeanlarda mövcud ola bilər.

3. III Məntəqə Tropik işıqlanma qurşağında yerləşə bilməz.

4. IV Məntəqədə il içərisində gecə ilə gündüz bərabər ola bilməz.

A) Yalnız 1, 2 və 3   B) Yalnız 2 və 3   C) Yalnız 4   D) Yalnız 2   E) Yalnız 1, 2 və 4

13. Böyük partlayış nəzəriyyəsinə görə kainatın yarandığı andan indiki vəziyyətinə qədər baş vermiş hadisələrin xronoloji ardıcıllığının düzgün verildiyi bəndi müəyyən edin.




I. Kosmik relikt (qalıq) şüalar
II. Qaranlıq dövr
III. İlk yeni qara dəliklər
IV. Proqalaktikalar
V. Müasir qalaktikalar
VI. İlk ulduzlar

A) I – 2, II – 1, III – 4, IV – 5, V – 6, VI – 3;
B) I – 3, II – 2, III – 1, IV – 4, V – 5, VI – 6;
C) I – 1, II – 4, III – 2, IV – 3, V – 6, VI – 5;
D) I – 1, II – 2, III – 4, IV – 5, V – 6, VI – 3;
E) I – 4, II – 3, III – 5, IV – 6, V – 1, VI – 2;

14. Respublikamızın da daxil olduğu İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT və ya ECO) hansı ölkələr tərəfindən qurulmuşdur?

A) Pakistan, İran, Türkiyə

B) Rusiya, Çin, Hindistan

C) İran, Türkiyə, Qazaxıstan

D) Ukrayna, Türkiyə, Rumıniya

E) Pakistan, Türkiyə, Gürcüstan

15. Qış gündönümündə  günəş şüalarının günorta vaxtı düşmə bucağı 26,5° olduğu coğrafi enliklərdə, gecə ilə gündüzün uzunluqları arasında nə qədər vaxt fərqi olduğunu sxemə əsasən müəyyən edin.




A) 4 saat 51 dəqiqə

B) 3 saat 58 dəqiqə

C) 8 saat 30 dəqiqə

D) 9 saat 8 dəqiqə

E) 5 saat 44 dəqiqə

16. Son illərdə Avropa, Şimali Amerika və Avstraliya materiklərində doğulanların sayının azalması ilə bağlı olan fikirlərin düzgün olduğu bəndi müəyyən edin.

1. Qadınların ictimai fəallığının artması (ali təhsil almaları, müxtəlif vəzifələrdə çalışmaları)
2. Gecikmiş nikahların üstünlük təşkil etməsi (təhsilin gec başa çatması, gələcək üçün karyera və yüksək maddi təminat istəyi)
3. Uşaqların təhsil və tərbiyəsinə sərf olunan xərclərin artması
4. Əhalinin maddi və mədəni tələbatlarının artması
5. Yaşlı valideynlərin övladlarının deyil, dövlətin himayəsində yaşaması

A) Fikirlərdən üçü doğru, digərləri səhvdir.

B) Fikirlərin hamısı doğrudur

C) Fikirlərdən ikisi doğru, digərləri səhvdir.

D) Fikirlərdən dördü doğru, digəri səhvdir.

E) Yalnız bir fikir doğrudur.

17. Verilmiş sxemə əsasən düzgün *olmayan* fikirləri müəyyən edin.




I. 6 rəqəmi ilə göstərilmiş küləyin sürəti 1 rəqəmi ilə göstərilən küləyin sürətindən böyükdür.

II. 3 və 6-cı rəqəmlərlə göstərilən küləklər yalnız üç okeanda müşahidə edilir.

III. 2 və 6-cı rəqəmlərlə göstərilən küləklər dinamik təzyiq qurşağından hərəkətə başlayır.

IV. 1, 4 və 5-ci rəqəmlərlə göstərilən küləklərin təsiri ilə yaranan okean cərəyanları, okean sularının duzluluğuna təsir etmir.

A) Yalnız I, II  B) Yalnız I, II, IV  C) Yalnız III  D) Yalnız III, IV  E) Yalnız IV

18. "Çernobıl" hadisəsinin baş verdiyi ölkəyə aid olan xüsusiyyətləri müəyyən edin.

1. Metallurgiya sənayesi yerli xammala əsaslanır.

2. Əhalinin əksər hissəsi qeyri-slavyan xalqlarıdır.

3. NATO və Avropa İttifaqı ölkələri ilə həmsərhəddir.

4. Sahilləri iki dənizin suları ilə yuyulur.

5. Ərazisində cavan dağlara rast gəlinmir.

6. İqtisadi fəal əhalinin əksər hissəsi kənd təsərrüfatı sahəsində çalışır.

A) 2, 5, 6  B) 1, 3, 4  C) 3, 4, 6  D) 1, 4, 5  E) 4, 5, 6

19. Külək elektrik stansiyalarının normal fəaliyyət göstərməsi üçün küləyin orta illik sürəti nə qədər olmalıdır?

A) 4,5 m/san

B) 6,5 m/san

C) 3,4 m/san

D) 7,6 m/san

E) 5,5 m/san

20. Ardıcıllığın pozulmadığı sıraları müəyyən edin.

1. Tikanlıçay → Girdimançay → Kür → Xəzər

2. Daşağılçay → Əyriçay → Qanıx → Kür

3. Cigilçay → Sumqayıtçay → Xəzər

4. Qarqarçay → Köndələnçay → Araz → Kür

5. Kürmükçay → Qanıx → Kür → Xəzər

6. Həsənsuçay → Ağstafaçay → Kür → Xəzər

7. Oxçuçay → Həkəriçay → Araz → Kür

8. Əlicançay → Türyançay → Kür → Xəzər

A) 1, 5, 8 B) 3, 5, 7 C) 2, 3, 5 D) 3, 4, 6 E) 2, 4, 5

21. Şimal yarımkürəsində Günəş şüalarının minimum düşmə bucağı $63,5^0$ olan coğrafi enliklə V saat qurşağının orta meridianından $5^0$ qərbdə yerləşən coğrafi uzunluğun kəsişməsində dayanan müşahidəçi əvvəlcə $0^0$ azimutla 4107 km yol getdikdən sonra, şərq istiqamətində 1708 km hərəkət edərək A ölkəsinə çatmışdır. A ölkəsinin inzibati ərazi quruluşunu, idarəetmə formasını və yerləşdiyi iqlim qurşaqlarını müəyyən edib yazın.

A) federativ; respublika; tropik, subtropik və subekvatorial

B) federativ; respublika; mülayim, subarktik və arktik

C) unitar; respublika; mülayim, subtropik və subekvatorial

D) unitar; monarxiya; tropik və subekvatorial

E) unitar; respublika; mülayim

22. Beynəlxalq maliyə mərkəzlərində aparılan əməliyyat növlərindən biri də qızılın alqı-satqısıdır. Qızıl ehtiyatı dövlətlərə maliyə siyasətini həyata keçirmək və fövqəladə hallar zamanı ən zəruri ehtiyacını həyata keçirmək üçün lazımdır. Buna görə də dünyanın əksər ölkələrində qızıl fondu mövcuddur. Qızıl fondu üzrə dünyanın aparıcı ilk 4 ölkəsini müəyyən edin.

A) ABŞ, İtaliya, Rusiya, Almaniya

B) Çin, Yaponiya, İsveçrə, Böyük Britaniya

C) ABŞ, Fransa, Çin, Rusiya

D) ABŞ, Kanada, Böyük Britaniya, Rusiya

E) ABŞ, Almaniya, Fransa, İtaliya

23. Aşağıdakı sxemdə soyuq atmosfer cəbhəsi təsvir edildiyini nəzərə alaraq, rəqəmlərlə göstərilən bulud növlərinin düzgün verildiyi bəndi müəyyən edin.



A) 1-Laylı-topa, 2-Yüksək-laylı, 3-Yüksək-topa, 4-Topa-yağışlı, 5-Laylı-yağışlı;

B) 1-Laylı-yağışlı, 2-Yüksək-laylı, 3-Laylı-topa, 4-Topa-yağışlı, 5-Yüksək-topa;

C) 1-Laylı-yağışlı, 2-Topa-yağışlı, 3-Laylı-topa, 4-Yüksək-laylı, 5-Laylı-yağışlı;

D) 1-Laylı-yağışlı, 2-Laylı-topa, 3-Yüksək-laylı, 4-Topa-yağışlı, 5-Yüksək-topa;

E) 1-Yüksək-laylı, 2-Laylı-yağışlı, 3-Topa-yağışlı, 4-Laylı-topa, 5-Yüksək-topa;

24. Amerikalı iqtisadçı Artur Oukenin nəzəriyyəsinə əsasən ölkənin ÜDM-nun həcmi 8,75% artarsa, işsizliyin neçə faiz azala biləcəyini müəyyən edin.

A) 17,5% B) 2,5% C) 13,5% D) 4,38% E) 3,5%

25. ÜDM həcminə əsasən tərtib olunmuş diaqramda rəqəmlə göstərilmiş ölkələr üçün düzgün olan fikirləri müəyyən edin.




I. Karbohidrogen ehtiyatlarına görə dünya lideridir.

II. Unitar respublikadır.

III. Kənd təsərrüfatının aparıcı sahəsi intensiv əkinçilikdir.

IV. Etnik müxtəlifliyinə görə federasiyalara bölünmüşdür.

V. NATO və Aİ üzvü olsa da BMT Təhlükəsizlik Şurasının daimi üzvü deyil.

A) I – 5, II – 1, III – 4, IV – 2, V – 3;

B) I – 2, II – 3, III – 1, IV – 5, V – 4;

C) I – 3, II – 2, III – 5, IV – 4, V – 1;

D) I – 3, II – 2, III – 1, IV – 5, V – 4;

E) I – 4, II – 5, III – 1, IV – 3, V – 2;

26. Verilmiş fikirlərdən doğru olanları seçin.

1. Araz, Şəmkir və Uzunoba su anbarları iki inzibati rayonun ərazisində yerləşir.

2. Azor adaları üzərində formalaşan hava kütlələri ölkəmizdə qış aylarında hakim olur.

3. Gəncə və Zaqatala-Lahıc fiziki-coğrafi rayonlarında qışı quraq keçən soyuq iqlim yarımtipi müşahidə edilmir.

4. Zəngilan, Füzuli və Cəbrayıl inzibati rayonlarında yarımsəhra quru-çöl, mülayim-isti və soyuq iqlim tipləri müşahidə edilir.

5. Günnüt-Qapıcıq fiziki-coğrafi rayonunda günəş radiasiyası bol olsa da aqroiqlim ehtiyatları ilə zəif təmin edilib.

6. Gilançay və Türyançayın qidalanmasında yağış sular üstünlük təşkil etmir.

A) 1, 3, 5 B) 2, 5, 6 C) 2, 4, 6 D) 1, 3, 6 E) 2, 4, 5

27. Uran ən mühüm radioaktiv element olub nüvə enerjisinin alınmasında istifadə olunur. Hal-hazırda ondan sülh məqsədilə, atom-elektrik stansiyaları, atom mühərrikləri, sualtı atom qayığı və s. sahələrdə istifadə olunur. Uran filizi tərkibinə görə çox “kasıb”dır. Uranın saflaşdırılması, yəni filizdən uran elementinin ayrılması onun çıxarıldığı ərazilərdə həyata keçirilir. 1 kq uran əldə etmək üçün nə qədər filiz tələb olunduğunu hesablayın.

A) 30 t B) 5 t C) 8 t D) 12 t E) 15 t

28. 2020-ci ildə erməni işğalından azad edilmiş kəndləri, verilmiş inzibati rayonlara müvafiq qruplaşdırıb yazın.

I. Qubadlı

II. Cəbrayıl

III. Kəlbəcər

IV. Laçın

V. Zəngilan

VI. Xocalı

1. Güləbrid    2. Çanaqçı    3. Başlıbel

4. Eyvazlı    5. Dağ Tumas    6. Bartaz

A) I-6; II-2; III-1; IV-5; V-3; VI-4;

B) I-5; II-4; III-3; IV-1; V-6; VI-2;

C) I-4; II-3; III-2; IV-1; V-6; VI-5;

D) I-1; II-4; III-3; IV-2; V-5; VI-6;

E) I-4; II-5; III-3; IV-1; V-6; VI-2;

29. Xəritə sxemdəki rəqəmlərin yerləşdiyi ərazilər üçün düzgün fikirləri müəyyən edin.




1. 5-ci məntəqədə Mezozoy yaşlı neft yataqları mövcud deyil.

2. 1, 3, 5 və 8-ci məntəqələrin yerləşdiyi ərazidə bir illik buxarlanan suyun miqdarı, yağıntının illik miqdarına bərabərdir.

3. 4 və 7-ci məntəqələr eyni iqlim yarımtipində yerləşir.

4. Bütün məntəqələrin yerləşdiyi ərazilərdə zəlzələlər baş verə bilər.

5. 2-ci məntəqədə günəş şüalarının maksimum düşmə bucağı $73,5^0$-dir.

6. 6-cı məntəqənin yerləşdiyi tektonik zonada qar xətti mövcuddur.

A) 2, 4, 6 B) 1, 2, 5 C) 2, 3, 5 D) 1, 4, 6 E) 3, 4, 6

30. Keçmiş SSRİ-nin topoloji xəritəsinə əsasən dövlət dilinin aid olduğu müvafiq dil ailəsini (qrupunu) təyin edin.




Dil ailəsi (qrupu)

I. Fin-Uqor

II. Roman

III. Kartvel

IV. İran

A) I - 6; II - 1; III - 3; IV – 7;

B) I - 1; II - 2; III - 5; IV – 3;

C) I - 2; II - 1; III - 3; IV – 8;

D) I - 2; II - 3; III - 5; IV – 7;

E) I - 6; II - 3; III - 4; IV – 8;

Düzgün cavablar:
1A 2E 3C 4B 5A 6C 7D 8E 9E 10D
11* 12A 13D 14A 15E 16B 17D 18B 19A 20C
21C 22E 23B 24E 25D 26B 27B 28E 29D 30C
Qarşısında * qoyulmuş cavab sehv olduğu üçün
şagirdlerin xeyrine hesaplanir.